# KİV-də ailə dəyərləri...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

**Ailəni kiçik dövlətə bənzədənlər yanılmırlar. Ailə doğrudan da dövlət kimidir, o da qorunmalıdır, onun da "sərhədləri" mühafizə olunmalıdır. Fərqli cəhət odur ki, hər kəs onu özü qorumalı və kənar təsirlərə məruz qalmasına imkan verməməlidir. Azərbaycanda ənənələrə söykənən, istinad edən, varislik missiyasını yerinə yetirməkdə olan ailə institutu var.**

Amma çox təəssüflər olsun ki, Azərbaycanın ailə institutuna qarşı həm xaricdən, həm də daxildən zərbə endirənlər var. Bəzən kütləvi informasiya vasitələrində ailə dəyərlərimizi şübhə altına alan elə cəfəngiyyatlara rast gəlirik ki, bundan məyus oluruq. Müasir dövrdə ailə dəyərlərini, hələ də birtəhər ayaqüstə dayanmaqda özündə güc tapan milli ailə institututunu qorumalıyıq. Çünki qeyd etdiyimiz kimi ona daş atanlar, zərbə vurub yıxmaq istəyənlər çoxdur. Heç birimiz buna yol verməli deyilik.

**Ailə dəyərlərimiz KİV-də necə təqdim edilir?**

Televiziya, radio, qəzet, jurnal, sosial media, onlayn mətbuat hamısı bir yerdə dövlətimizin, xalqımızın milli maraqlarına xidmət etməlidir. Bu birmənalıdır. Lakin təəssüf ki, əksər hallarda biz bunu görə bilmirik. Bu gün yerli telekanalların çoxu əlinə "balta" alıb Azərbaycan ailəsinin, milli ailə dəyərlərinin qəsdinə durub. Telekanallarda çoxsaylı ailə məişət mövzusunda proqramlar yayımlanır. Bu mövzuda olan proqramların əksəriyyəti, bəlkə də 99 faizi bizim ailəmizi səhv yöndən tanıdır. Əksər ekspertlər hesab edirlər ki, bu verilişlərin, orada əks olunan məsələlərin, cərəyan edən olayların ailə dəyərlərimizə böyük zərbə vurduğunun fərqində olmalıyıq. Orada elə fikirlər səsləndirilir ki, onu eşidəndə Azərbaycanda ailə dəyərlərinin tamamilə itdiyini zənn edirsən. Mütəxəssislərin fikrincə, bu cür yanlış təqdimatların ailə dəyərlərimizə vurduğu zərbə çox böyükdür. Bütün günü ailədaxili münaqişələr, qalmaqallar, boşanmalar, xəyanət hadisələri, gəlinlərin, qızların evdən qaçması təbliğ edilir, bayağı münasibətlər təqdim edilir. İndiyə qədər bir dənə də olsun nümunəvi ailə təqdim edilməyib. Bizim TV-lərə baxanlar nümunəvi, xoşbəxt Azərbaycan ailəsini görə bilmirsən. Halbuki, Azərbaycanda nümunəvi ailələrin sayı çoxdur. Baxmayaraq ki, bir ucdan boşanma, xəyanət, ailə münaqişəsi təbliğ olunur, gender bərabərliyini özünə gəlir yeri sayanlar bizim ailə dəyərlərini ayaq altına atmaq istəyir, lakin onların təxribatı alınmayacaq. Bunun alınmaması üçün isə ayıq- sayıq olmalıyıq.

**"Bu verilişlər vasitəsilə ailəni qadın karyerası önündə əngəl kimi təqdim edirlər, tanıdırlar"**

Mövzu ilə əlaqədar "Bakı-Xəbər"ə danışan "Sağlam Toplum" İctimai Birliyinin sədri, sosioloq Lalə Mehralı bildirdi ki, televiziyaların efirə çıxardığı ailələr adətən münaqişəli ailələr olur: "Nəyə görə? Çünki o ailələr televiziya verilişlərinə reytinq gətirə bilir. Dava-dalaş, aqresiya, çəkişməli boşanmalar, bunlar hamısı televiziyaların reytinqini artırır. Ona görə ki, efirdə nümunəvi ailəni göstərib sakit süjet xətti ilə efirə tamaşaçı cəlb edə bilmirlər. Bu tip verilişlər olduqca Azərbaycanda ailə münaqişələrinin, çəkişməli ailə modellərinin sonu görünməyəcək. Efirdə tutalım hansısa bir qadının uğur hekayəsinə aid veriliş hazırlanıb, o verilişə çıxardıqları qadın süjetdə həyatını danışır, uğura nail olmaq üçün nələri necə etdiyini deyir, süjetin kuliminasiya nöqtəsində məlum olur ki, qadın boşanmış qadındır. Yəni qadının boşandığı xüsusi olaraq vurğulanır ki, bu bütün uğurlarını boşandıqdan sonra qazanıb, özünə karyera qura bilim. Bu verilişlər vasitəsilə ailəni qadın karyerası önündə əngəl kimi təqdim edirlər, tanıdırlar. Təlqin edilir ki, ailəli olmağın iş həyatına, karyeraya əngəl kimi təqdim edib bunu alt şüura yeritmək istəyirlər ki, qadınlar ailə qurdunuzsa karyeranız məhv olacaq, ailəlisinizsə siz işinizdə yüksələ bilməyəcəksiniz, bunun üçün boşanmaq lazımdır. Bir qayda olaraq uğur əldə etmiş qadınlarla bağlı bütün verilişlərin qəhrəmanları məhz bu şərtlərlə seçilir-onlar boşanmış qadınlar olmalıdır. Elə də olur. Təbii ki, bütün bunların, bu fikirlərin, bu yanaşmaların təqdim edilməsi mənfi tendensiyadır. Amma təəssüf ki, biz bunları görürük".



**"Hamı bilir ki, orada əksər hallarda oyun qurulur"**

L.Mehralının sözlərinə görə, TV-lərin məlum verilişləri qadının boşanmasını geniş təbliğ edir və boşanmağı insanlara həyat yolunun "parlaq olması" kimi təqdim edirlər. L.Mehralı qeyd etdi ki, insan boşana da, ayrıla da bilər, insanın başına hər şey gələ bilər, hər şey insan üçündür, amma boşanmanı xüsusi həvəslə təbliğ edilməsi yolverilməzdir: "Bunu çox böyük həvəslə təbliğ edirlər ki, qadınlar məhz boşandıqdan sonra parlaq karyera qura bilirlər. Bu məsələni xüsusi qabartmaq artıq bu işin məqsədli şəkildə həyata keçirildiyindən xəbər verir. Bizim kifayət qədər ailəli xanımlarımız var ki, işində, karyerasında böyük uğurlar əldə edib, yüksəlib. Onları efirə çıxarmırlar. Ona görə ki, onlarla reytinq, baxış əldə edə bilmirlər. Bu baxış sayını artırmır. Ona görə də verilişlərə daha sensasiyalı həyatlar lazımdır ki, bu yolla baxış sayını artıra bilsinlər. Məslən, ailə-məişət mövzusunda olan verilişlərdə kimlər ki, ailəsində konflikt yaşayır, ailəsi ilə münaqişədədir o insanları sırf arayıb-darayıb efirə dəvət edir. O efirə çıxanların hamısının özü gəlmir ki. Yəni adam cəsarət göstərə bilmir ki, gəlib efirdə öz ailəsinin içini açıb töksün. Bunun üçün o adamlara şirnikəndirici vədlər verirlər ki, efirə gəlsən münaqişəni həll etməyə kömək edəcəyik, səni pulsuz vəkillə təmin edəcəyik, sığınacaqla təmin olunacaqsan. Onlara bu cür şirnikləndirici vədlər verirlər. O ailələrin fərdləri də bu vədlərə aldanaraq efirə gəlir. Bir neçə dəfə olub ki, bu kimi vədlərə şirnikərək efirə gələn adamlar peşiman olub efirə yarıda tərk ediblər. Heç olub ki, heç efirə çıxmayıblar. Çünki orada təklif edilən vədlər onlara cazibəli gəlib ona görə də orada axıra qədər oturublar. Amma bütün bunları xalq izləyir, xalq görür. Orada nələr vəd edirlərsə etsin ki, elin gözü tərəzidir. Hamı bilir ki, orada əksər hallarda oyun qurulur"- deyə L.Mehralı bildirdi.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**